BAKI DÖVLƏT UNİVERSİTETİ

BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT FAKÜLTƏSİ

“Şəhərsalma və Memarlıq İli” çərçivəsində Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 35 illiyinə həsr olunmuş

“YENİ QLOBAL NİZAM, DƏYİŞƏN GEOSİYASİ VƏ GEOİQTİSADİ GÜC BALANSI”

RESPUBLİKA ELMİ KONFRANSI

14–16 dekabr 2026-cı il, Bakı

Hörmətli həmkarlar!

Bakı Dövlət Universiteti Sizi 14–16 dekabr 2026-cı il tarixlərində keçiriləcək “Yeni qlobal nizam, dəyişən geosiyasi və geoiqtisadi güc balansı” mövzusunda Respublika Elmi Konfransında iştirak etməyə dəvət edir.

Konfrans müasir beynəlxalq münasibətlər və dünya iqtisadiyyatında baş verən transformasiyaların, qlobal və regional güc mərkəzləri arasında münasibətlərin, beynəlxalq təhlükəsizlik, iqtisadi inteqrasiya və dayanıqlı inkişaf məsələlərinin elmi müzakirəsini nəzərdə tutur.

Konfransın əsas elmi istiqamətləri

1. Yeni qlobal nizam və beynəlxalq münasibətlər sistemində geosiyasi transformasiyalar.
2. Dünya iqtisadiyyatında dəyişən geoiqtisadi güc balansı və yeni iqtisadi güc mərkəzləri.
3. Regional və qlobal təhlükəsizlik, münaqişələr və müasir diplomatiya.
4. Beynəlxalq iqtisadi inteqrasiya, xarici ticarət, investisiya axınları və nəqliyyat-logistika dəhlizləri.
5. Azərbaycanın müasir geosiyasi və geoiqtisadi proseslərdə rolu və strateji mövqeyi.
6. Enerji təhlükəsizliyi, yaşıl iqtisadiyyat və dayanıqlı inkişafın qlobal çağırışları.
7. Qlobal transformasiyalar şəraitində şəhərsalma, urbanizasiya və infrastruktur inkişafının geoiqtisadi aspektləri.

Konfransın işçi dilləri

Azərbaycan və ingilis dilləri.

Konfransda iştirak və qeydiyyat

Konfransda ali təhsil və elmi tədqiqat müəssisələrinin professor-müəllim heyəti, elmi işçilər, doktorantlar və digər tədqiqatçılar iştirak edə bilərlər.

Bütün iştirakçıların aşağıdakı Google Forms keçidi vasitəsilə qeydiyyatdan keçməsi nəzərdə tutulur:

Qeydiyyat linki:

https://forms.gle/PKZWGptwJpbErMeE7

(Qeydiyyat keçidini fakültənin rəsmi sosial media hesablarından da əldə etmək mümkündür.)

Əsas tarixlər

Məlumat	**Tarix**
Qısa tezislərin təqdim edilməsi üçün son tarix	**30 noyabr 2026**
Konfrans proqramının elan olunması	**7 dekabr 2026**
Konfransın keçirilmə tarixi	**14–16 dekabr 2026**
Tam məqalələrin təqdim edilməsi üçün son tarix	**30 dekabr 2026**

ELMİ MATERİALLARIN TƏQDİM EDİLMƏSİ QAYDALARI

- Konfransa daha əvvəl başqa hər hansı bir yerdə nəşr və məruzə olunmamış orijinal tezislər göndərilməlidir;
- Proqram Komitəsi yalnız konfransın istiqamətləri üzrə qoyulan tələblərə və tərtib olunma qaydalarına uyğun olaraq yığılmış tezisləri nəzərdən keçirəcəkdir;
- Göstərilən tərtibat qaydalarına uyğun olmayan tezislər konfrans proqramına daxil olunmayacaqdır. Xüsusilə materialların təqdim edilməsi üçün müəyyən olunmuş son tarixə yaxın hər hansı çətinliyin yaranmaması məqsədilə tezislərin bütün tələblərə uyğun hazırlanması və vaxtında təqdim edilməsi tövsiyə olunur.
- Hər bir tədqiqatçı müəllif və ya həmmüəllif qismində ən çoxu 2 məruzə təqdim edə bilər. Bu qayda həmmüəllifli məruzələrə də şamil edilir.
- Məruzə yalnız onun müəllifi və ya həmmüəlliflərindən biri tərəfindən təqdim oluna bilər. Müəlliflərdən başqa şəxslərin məruzə ilə çıxış etməsinə icazə verilmir.
- Hər bir elmi material üzrə müəlliflərin sayı üç nəfərdən artıq olmamalıdır.

QISA TEZİSLƏRİN TƏRTİBAT QAYDALARI

Nümunə Word faylı: QISA TEZİS ÜÇÜN NÜMUNƏ FAYLINI YÜKLƏ

1. Əsas mətnin (qısa tezisin) həcmi 350–400 söz olmalı və tezis müəllif məlumatları daxil olmaqla 1 səhifədən artıq olmamalıdır
2. Tezisin əvvəlində məruzənin adı böyük hərflərlə, qalın şriftlə və səhifənin ortasında yazılmalıdır.
3. Məruzənin adından sonra müəlliflərin ad və soyadları göstərilməlidir.

4. Müəlliflərin təmsil etdikləri universitet, fakültə, kafedra və ya digər struktur bölmənin adı, həmçinin elektron poçt ünvanları müvafiq indekslərə uyğun olaraq ayrıca göstərilməlidir.
5. Əsas mətn “Tezis” başlığı altında təqdim edilməlidir.
6. Tezisdə tədqiqatın aktuallığı və məqsədi, istifadə olunan metodologiya, əldə edilmiş əsas nəticələr və yekun elmi qənaətlər əks etdirilməlidir. Mətn ayrıca bölmə başlıqlarına ayrılmadan, vahid mətn şəklində yazılmalıdır.
7. Tezisin mətnində şəkil, qrafik, cədvəl, ədəbiyyata istinad və ədəbiyyat siyahısı yer almamalıdır.
8. Tezisin sonunda “Açar sözlər” başlığı altında 3–5 açar söz göstərilməlidir.
9. Tezislər aydın, səlis və anlaşıqlı elmi dildə yazılmalı, təqdim edildiyi dilin orfoqrafiya və qrammatika qaydalarına uyğun olmalıdır.
10. Tezislər təqdim olunmuş nümunə formaya uyğun hazırlanmalıdır.

TAM MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI

Aşağıda göstərilən tərtibat qaydalarına uyğun olmayan məqalələr müəyyən edilmiş texniki tələblərə cavab vermədiyi üçün qəbul edilməyəcəkdir.

Nümunə Word faylı: TAM MƏQALƏ NÜMUNƏ FAYLINI YÜKLƏ

Məqalələrin dili, həcmi, hazırlanma proqramı və səhifə formatı

1. Məqalələr konfransın işçi dillərində hazırlanmalıdır.
2. Məqalələrin həcmi 10 səhifədən artıq olmamalıdır.
3. Məqalələrin hazırlanması üçün Microsoft Word 2007 və daha yeni versiyalardan istifadə edilməlidir.
4. Məqalənin bütün mətnində Calibri şriftindən istifadə olunmalıdır. Şrift ölçüləri aşağıdakı kimi müəyyən edilir:
    - Əsas mətn – 9,5 pt;
    - Məqalənin adı – 16 pt, qalın şriftlə;
    - Səhifəaltı qeydlər – 8,5 pt.
5. Məqalələr A4 formatında hazırlanmalı və səhifə kənarları aşağıdakı ölçülərə uyğun olmalıdır:
    - Yuxarı – 3,5 sm;
    - Aşağı – 3 sm;
    - Sağ – 3,25 sm;
    - Sol – 3,25 sm.
6. Məqalələrin təqdim edilmiş nümunə Word faylındakı formata uyğun hazırlanmalıdır.

7. Məqalədə istifadə olunan cədvəl, şəkil və qrafiklər səhifənin sol tərəfinə uyğunlaşdırılmalı və müəyyən edilmiş səhifə sərhədlərindən kənara çıxmamalıdır.
8. Elmi mənbələrə istinadlar və ədəbiyyat siyahısı APA 7 standartına uyğun tərtib olunmalıdır.

Əlaqə

Təşkilatçı: Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi

Qeydiyyat: https://forms.gle/PKZWGptwJpbErMeE7

Elektron poçt: bmi.sosial.media@gmail.com

Qalib.qafar@gmail.com

Təşkilat komitəsi

QISA TEZİS ÜÇÜN NÜMUNƏ

MƏRUZƏNİN ADI

Birinci Müəllif[1], İkinci Müəllif[2], Üçüncü Müəllif[3]

[1] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

[2] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

[3] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

Tezis

[Burada 350–400 sözlük qısa tezis mətni yerləşdirilir. Tədqiqatın aktuallığı və məqsədi, istifadə olunan metodologiya, əldə olunan əsas nəticələr və yekun elmi qənaətlər vahid mətn şəklində təqdim edilir. Mətn daxilində ayrıca bölmə başlıqları, cədvəl, şəkil, qrafik, istinad və ədəbiyyat siyahısı olmamalıdır.]

Açar sözlər: [açar söz 1]; [açar söz 2]; [açar söz 3]; [açar söz 4].

TAM MƏQALƏ ÜÇÜN NÜMUNƏ

MƏQALƏNİN ADI

Birinci Müəllif[1], İkinci Müəllif[2], Üçüncü Müəllif[3]

[1] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

[2] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

[3] Universitet, fakültə, kafedra / struktur bölmə; e-poçt: [ünvan]

Xülasə

[Tədqiqatın məqsədini, metodologiyasını, əsas nəticələrini və qənaətlərini qısaca təsvir edin.]

Açar sözlər: [açar söz 1]; [açar söz 2]; [açar söz 3]; [açar söz 4].

1. Giriş

[Tədqiqat probleminin aktuallığı, məqsədi, sualları və mövzu üzrə elmi yanaşmalar bu hissədə təqdim olunur.]

1.1. Alt başlıq (zərurət olduqda)

[Alt bölmənin mətni. Alt başlıqlar 1.1., 1.2. və s. qaydasında nömrələnir.]

2. Metodologiya

[Tədqiqatın məlumat bazası, seçmə, tətbiq edilən metod və analitik yanaşmalar burada göstərilir.]

Cədvəl 1. Cədvəlin adı

Göstərici	Dövr	Dəyər
[Məlumat]	[Məlumat]	[Məlumat]
[Məlumat]	[Məlumat]	[Məlumat]

Qeyd: Cədvəl, şəkil və qrafiklər səhifənin soluna uyğunlaşdırılmalı və səhifə hüdudlarını aşmamalıdır.

3. Nəticələr

[Əsas empirik və ya nəzəri nəticələr, onları dəstəkləyən faktlar və izahlar burada verilir.]

4. Müzakirə

[Nəticələrin elmi ədəbiyyatla müqayisəsi və mövzu baxımından izahı bu bölmədə təqdim olunur.]

5. Yekun və tövsiyələr

[Tədqiqatın əsas qənaətləri və uyğun tövsiyələr qeyd olunur.]

6. Ədəbiyyat

[Müəllifin soyadı, A. (il). Əsərin adı. Nəşr və ya jurnal məlumatları.]

[Məqalədə istinad edilən digər mənbələr APA 7 standartına uyğun verilir.]